**Həmçinin Jo Nesbo tərəfindən yazılmış**

*Qızılgərdan*

Nadir və qeyri-adi bir silahın ölkəyə qaçaq yolla gətirilməsi barədə hesabat detektiv Harri Holenin diqqətini cəlb edir. Sonra keçmiş bir əsgərin boğazı kəsilmiş halda meyiti tapılır. Arxasınca Harrinin keçmiş həmkarı və ortağı öldürülür. O öldürüldüyü gecə niyə Harri ilə telefonla danışmağa can atıb?

*Qisas ilahəsi*

Bank kassirini güllələyən adam CCTV-də (nəzarət videomüşahidə sistemi) qeydə alınıb. Harri istintaqa başlamışdı, lakin köhnə tanışı olan qızla axşam yeməyindən sonra ən azı son 12 saatı xatırlaya bilməyəcək vəziyyətdə yuxudan oyanır. Sonra qız yatağında ölü olaraq tapılır. Harri hədələyici e-mail-lər almağa başlayır: doğrudanmı kimsə onu qızın ölümü ilə hədələməyə çalışır?

*Xilaskar*

Şaxtalı dekabr gecəsi Yeni il konsertində çıxış edən müğənnilərdən biri güllələnir. Harri və onun komandası hadisənin istintaqına çağırılır, lakin edə biləcəkləri az şey – nə bilavasitə şübhəli şəxs, nə cinayət silahı, nə də motiv var. Lakin qatil yanlış adamı vurduğunu aşkar edincə, Harri onu problemləri başlayan andan müəyyən edir.

*Qar adam*

İlk qar yağdığı gecə gənc ana öz evindən yoxa çıxır. Onun yox olması ilə bir neçə ay bundan əvvəl Harriyə göndərilən təhdid məktubu arasında bir əlaqə varmı?

İkinci qadın yox olanda, elə bil Harrinin ən pis şübhələri təsdiq olunurdu: öz karyerasında ilk dəfə seriya qatillə qarşılaşmışdı. Qatil onu dəlilik həddinə çatdırmağa çalışacaqdı.

*Bəbir*

İki qadın ölü olaraq tapılıb və hər ikisi boğulub. Əvvəlcə Harri bu işlə bağlı bir şey etmək istəmir, lakin məşhur deputat qətlə yetirildiyi zaman onun instinkti üstün gəlir. Az sonra qurbanlardan biri haqda mühüm fakt aşkar edilir: qadın bütün gecəni əlahiddə bir dağ pansionunda keçirib...

# I HİSSƏ



# 1

# Cümə. Yumurta

Ev çoxdan, hələ 1898-ci ildə inşa edilmişdi. Onu gilli torpaq üzərində tikdiklərindən artıq yanı üstə çökmüşdü. Buna görə də su açıq qapının girəcəyindən yataq otağına keçir və palıd parketin üstü ilə tünd iz buraxaraq elə qərbə doğru axıb-gedirdi. Axan su döşəmənin çökəyində bir anlıq dayanıb istirahət elədikdən sonra arxasınca gələn su yığıntısının təzyiqi ilə yoluna davam edir, sonra isə qorxmuş siçovul kimi plintusa sarı qaçırdı. Bu nöqtədə axıntı ikiyə ayrılırdı: artıq iki siçovul – hərəsi öz tərəfinə yol axtarmaq üçün plintusu iyləyirdi. Budur, onlardan biri plintusla döşəmə arasından yarıq tapdı. Orada üzərində Kral Ulafın[1] profili olan və "1987" yazılmış beş kronluq bir sikkə vardı. Keçən il onu dülgər əlindən salmışdı. Onda zəmanə o qədər də pis deyildi, mansard tikmək sifarişləri də ard-arda gəlirdi deyə, dülgər sikkəni axtarmağa heç lüzum görməmişdi. Döşəmənin altına süzülən su tezliklə daha aşağı axdı. Şam ağacından olan parketlərə 1898-ci ildən kimsə

[1] Norveç kralı V Ulaf (1903–1991)

toxunmamışdı (ola bilsin ki, bircə 1968-ci il istisna olmaqla, – çünki axan tavan yenidən örtülmüşdü) və o zamandan bəri onlar rahatca qurumuş və artıq aralarında yarım santimetrlik yarıqlar əmələ gəlmişdi. Oradan su özünün qərbə axışını divara çatana qədər davam etdirdi. Kərpiclərin arasındakı palçığın və əhəng suvağın yaşı yüzü adlamışdı. Onları hələ dədə-babadan daş ustası və beş uşaq atası olan Yakob Andersen qarışdırmışdı. Norveç paytaxtının bütün ovaxtkı ustaları kimi, Andersenin də özünəməxsus suvaq və palçıq qarışdırma resepti vardı. Reseptlər təkcə ustaya bəlli olan əhəng, qum və su nisbətinin formulu deyil, həm də xüsusi qatqılarla fərqlənirdilər: at qılı və donuz qanı. Yakob Andersen gerçəkdən hesab edirdi ki, at qılı və qan suvağı bağlayır və ona xüsusi möhkəmlik verir. Həmkarları başlarını bulayırdılar, lakin Andersen inandırmağa çalışırdı ki, bu kəşf ona dədə-babalarından miras qalıb. Onun şotlandiyalı əcdadları – atası və babası da qarışığa eyni əlavələri edirdi, amma donuz yerinə qoyun qanından istifadə eləyirdilər. Andersen müəlliminin soyadını götürüb şotland soyadından imtina etsə də, altı əsrlik təcrübədən imtina etmək istəmirdi. Bir çox tikinti ustaları onun reseptini əxlaqsız sayır, bəziləri onun şeytanla əlaqədə olduğunu düşünür, digərləri isə sadəcə lağ edib gülürdülər. Ola bilsin, elə sonunculardan – Andersenlə məzələnənlərdən biri həmin hekayəni uydurub – o zaman Kristaniya adlanan paytaxtın şəhər əfsanəsinə çevrilmiş hekayəsi.

Qryünerlökkadan[1] olan arabaçı Vermlanddan olan əmiqızısı ilə evləndi. Gənc ailə Seylduksqatada Andersenin tikdiyi evlərdən birində bir otaq və mətbəx olan mənzilə köçdü. İlk uşaqda bəxtləri gətirmədi: o, dünyaya gələrkən qara qıvrım saçları və qonur gözləri vardı. Anası sarışın saçlı və mavigözlü idi,

[1] Qryünerlökka – Oslonun bir rayonu. Keçmişdə fəhlələr yaşayan ucqar, indi dəbdə olan kübar məhəllə.

onun qısqanc əri də həmçinin. Günlərin bir günü gecədən xeyli keçmiş, o, arvadının qollarını arxadan bağladı, zirzəmiyə apardı və orada onu divara hördü. İkiqat kərpic divar arasına sıxılmış qadının əzablı qışqırtıları əsla eşidilmirdi. Əri güman edirdi ki, arvadı boğulub öləcək. Amma ozamankı inşaatçılar ventilyasiyanı yaxşı təmin edirdilər. Ümidsiz qadın möhkəm dişləri ilə kərpici yeməyə başladı. Bəlkə də, qadın azad olardı, çünki şotland Anderson at qılı və donuz qanı istifadə etməklə məhlulun daha bahalı tərkib hissəsi olan əhəngə qənaət etməyi düşünmüşdü. Divar möhkəm Vermlandlı dişlərin hücumuna davam gətirməyib təslim olmağa başladı. Lakin həyat eşqi həddən çox qüvvətli idi və qadın tələsdi. Tezliklə qadın artıq nə çeynəyə, nə uda, nə də tüpürə bildi. Qum, daşcıqlar və yanmış gil parçaları onun nəfəs yolunu tıxadı, üzü göyərdi, ürəyi getdikcə yavaş döyündü və nəhayət, nəfəsi dayandı.

O öldü, çoxları məhz belə deyə bilərdi.

Lakin, əfsanəyə görə, bədbəxt qadın donuz qanı dadaraq heç də özünü ölmüş saymır. Qəfil bir çəldliklə o, bağlardan azad olaraq divardan keçir və indi də şəhərdə gəzir. Qryünerlökkada hələ də qocalar var ki, uşaqlıqdan əlində bıçaq şəhərin küçələrində gəzən donuz başlı qadın haqqında əfsanəni xatırlayırlar. Əgər kiçikyaşlı uşaqlar gecədən xeyli keçmiş gəzməyə çıxırsa, bu qadın onların başını kəsir: axı tamamən yox olmamaq üçün, tüstü kimi dağılmamaq üçün o, həmişə ağzında qan dadı hiss etməlidir.

Doğrudur, daş ustasının adını çoxları unutmuşdu və ona görə usta Andersen hələ də öz xüsusi məhlulunu qarışdırmaqda davam edirdi. İndi döşəməsi ilə su axan evi də o tikmişdi, lakin üç ildən sonra taxtabənddən düşərək öldü, nəslinə iki yüz kron və bir gitara miras qaldı. Təxminən yüz il sonra inşaatçılar sement palçığında at qılına bənzər süni liflərdən istifadə etməyə başladı,

Milan laboratoriyasının tədqiqatçıları isə aşkar etdilər ki, İerixonun divarları qanla və dəvə yunu ilə möhkəmləndirilib.

Su divardan keçmirdi, aşağı süzülürdü. Bu cəhətdən su da qorxaqlıq və digər qüsurlar kimidir, hər zaman dibə çatmağa səy göstərərək hey aşağıya meyil edir. Əvvəlcə tozvarı gilli qat suyu özünə çəkirdi, lakin o çox tez doydu və su yolda "*Aftenposten*" qəzetinin 11 iyul 1898-ci il tarixli nömrəsini yuyaraq yoluna davam etdi. Qəzetdə yazılmışdı: "Kristaniyada əsl tikinti bumu yaşanmaqdadır, indi ümid etmək olar ki, daşınmaz əmlak alveri edən vicdansız işbazların qızıl günləri geridə qaldı. Üçüncü səhifədə isə qeyd olunurdu ki, polis indiyə qədər gənc tibb bacısını ölümcül yaralamış qatilin izinə düşə bilməyib. Onun cansız bədəni ötən həftə hamam otağında aşkar edilmişdi. Həmin ilin may ayında Akerselvanın sahilində bir qızın eybəcər hala salınmış cəsədi tapılmışdı. Cinayətlərin törədilmə şəkli bənzər olsa da, polis bu iki zorakılıq arasında əlaqə olma ehtimalını elan etməyə tələsmir".

Su qəzetlərin üzərindən keçdi, taxta örtüyün altına keçərək, dartma tavanın əks tərəfi ilə axmağa başladı. Tavan 1968-ci ildəki su sızmasından sonra təmir olunmuşdu; onun səthi dəlik-deşik edilmişdi və su bu deşiklərdən damcılar şəklində axırdı. Damcılar getdikcə daha ağır olurdular və onları tavanda saxlayan səthi gərilmə qüvvəsinə üstün gəlincə, qoparaq üç metr səkkiz santimetr hündürlükdən yerə dəyirdilər. Daha doğrusu, suya.

Vibekke Knutsen acgözlüklə siqaret çəkir və tüstünü dördüncü mərtəbənin açıq pəncərəsinə buraxırdı. İsti axşam havası arxa həyətdə qızmış asfaltdan qalxaraq mavi fasadın fonunda tez əriyib gedən tüstü axınını özü ilə aparırdı. Ullevolsveyen tərəfdən keçən tək-tük avtomobilin küyü eşidilirdi. Adətən, bu küçədə intensiv hərəkət olur, lakin indi məzuniyyət mövsümü

olduğundan şəhər elə bil ölmüşdü. Pəncərənin altında ayaqları yuxarı qalxmış milçək uzanmışdı, onun istidən gizlənməyə ağlı çatmırdı. Mənzilin Ullevolsveyenə çıxan tərəfində daha sərin idi, lakin o pəncərədən görünən mənzərə – məşhurlarla dolu Xilaskar İsa qəbiristanlığı Vibekkenin xoşuna gəlmirdi.. Ölü məşhurlarla. Evin birinci mərtəbəsində mağazada "Abidələr" yazılmış lövhə olan, lakin əslində məzar daşlarından başqa bir şey olmayan əşyalar satılırdı və marketoloqlar bunu, yəqin ki, "bazara yaxınlıq" adlandırardılar.

Vibekke alnını isinmiş pəncərə şüşəsinə söykədi.

Əvvəlcə o, isti havaların gəlməsinə sevinirdi, lakin bu yaxşı əhvali-ruhiyyəsi tezliklə keçdi, o, sərin gecələr və qələbəlik küçələr üçün darıxmağa başladı. Bu gün mağazada yalnız səkkiz müştəri oldu: nahara qədər beş, sonra isə üç. Darıxmaqdan Vibekke otuz siqaret çəkdi və şef zəng edərkən ürəyi elə bərk döyünür və boğazı elə ağrıyırdı ki, güclə danışa bilirdi. Lakin evə dönüb kartof təmizləməyə başlayan kimi yenidən siqaret çəkmək istədi.

Vibekke bu adətini iki il bundan əvvəl Andersla tanış olduqdan sonra atmışdı. Həm də o bunu xahiş etmədən. Hətta tam tərsinə. Onlar Qran-Kanariada görüşəndə Anders hətta ondan siqaret istədi. Elə-belə, gülmək xətrinə. Osloya qayıdandan cəmi bir ay sonra onlar bir yerdə yaşamağa başlayanda Anders az qala o saat elan etdi ki, bir az passiv siqaret çəkmə münasibətlərinə zərər verməz. Onkoloqlar da hər halda bir az şişirdirlər. O da tezliklə paltarından gələn siqaret qoxusuna adət edəcək. Elə ertəsi gün Vibekke siqareti atmaq qərarına gəldi. Bir neçə gün sonra axşam yeməyi zamanı dedi ki, çoxdandır onu siqaretlə görmür. O da cavab verdi ki, heç zaman ciddi çəkən olmayıb. Anders gülümsədi, masa üstündən əyilərək yanaqlarını sevgi ilə sığalladı: